AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İKİNCİ TƏRTİB CIRLAŞAN ELLİPTİK VƏ PARABOLİK TƏNLİKLƏRİN HƏLLƏRİNİN KEYFİYYƏT XASSƏLƏRİ

İxtisas: 1211.01 – Diferensial tənliklər

Elm sahəsi: Riyaziyyat

İddiaçı: **Sarvan Təhməz oğlu Hüseynov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2021

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Ali riyaziyyat” kafedrasında yerinə yetirilmişdir.

Rəsmi opponentlər: fizika-riyaziyyat elmləri doktoru, professor

Tahir Sədi oğlu Hacıyev

riyaziyyat elmləri doktoru, professor

Mahir Mirzəxan oğlu Səbzəliyev

fizika-riyaziyyat elmləri doktoru, professor

Nizaməddin Şirin oğlu İsgəndərov

fizika-riyaziyyat elmləri doktoru, professor

Varqa Kazım oğlu Kələntərov

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.04 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA–nın müxbir üzvü, f-r.e.d., professor

_________________ **Misir Cumail oğlu Mərdanov**

Dissertasiya şurasının elmi katibi: f-r.e.n.

_______________**Əbdürrəhim Fərman oğlu Quliyev**

Elmi seminarın sədri: AMEA–nın həqiqi üzvü, f-r.e.d., professor

_________________ **Yusif Əbülfət oğlu Məmmədov**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Dissertasiya işi ikinci tərtib cırlaşan elliptik və parabolik tənliklərin həllərinin keyfiyyət xassələrinə həsr olunmuşdur. Dissertasiyada müntəzəm cırlaşan ikinci tərtib divergent elliptik tənliklər üçün birinci sərhəd məsələsi, həllin Hölder kəsilməzliyi, hamar funksiyaların çəkili Sobolev fəzasında sıxlığı, Makenhaupt çəkili $p-$Laplas tənliyinin həllinin Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi, oblastın bir hissəsində cırlaşan $p-$Laplas tənliyinin həllinin Hölder kəsilməzliyi araşdırılmışdır. Həmçinin oblastın bir hissəsində müntəzəm cırlaşan $(p,q)-$Laplas tənliyinin həllinin Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi öyrənilmişdir. Dissertasiyada eyni zamanda qeyri-müntəzəm cırlaşan elliptik və parabolik tənliklər üçün Dirixle məsələsi tədqiq olunur. Qeyri-müntəzəm cırlaşan parabolik tənliklərin həlli üçün Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi öyrənilir.

Cırlaşan elliptik tənliklər üçün sərhəd məsələləri xüsusi törəməli diferensial tənliklər nəzəriyyəsinin əsas tətbiqi bölmələrindən biridir.

Qeyd edək ki, cırlaşan elliptik tənliklər üçün kifayət qədər məqalələr çap olunmuşdur. İkinci tərtib cırlaşan elliptik tənliklər üçün, ən birincilərdən M.V.Keldışın (1951) məqaləsini qeyd etmək olar. Həmin işdə ilk dəfə olaraq oblastın sərhəddinin xarakteristik hissəsi sərhəd şərtinnən azad olunaraq həllin məhdudluğu ilə əvəz olunur. Daha sonra A.V. Bitsadze öz işində məhdudluq şərtinin bəzi çəki funksiyası ilə əvəz edilə biləcəyini göstərmişdir.

Cırlaşan elliptik tənliklər fırlanma səthlərinin kiçik əyilməsi, örtüklər nəzəriyyəsində və.s.məsələlərində rast gəlinir. Bu cür tənliklər qaz dinamikasında mühüm rol oynayır. Belə tənliklər diffuziya və dissipasiya ilə əlaqəli prosesləri modelləşdirir. Cırlaşan elliptik tənliklərin öyrənilməsinə dair fundamental işlər Trikomi Holmqren, Qellerşted, Frankl, Germain, Bitsadze, Babenko, Keldış, Vişik, Kudryavtsev, Fikera və Vekuaya aiddir. Feybs, Keniq və

Serapioninin işində cırlaşan divergent formalı xətti elliptik tənliklərin zəif həllərinin lokal requlyarlığı öyrənilmişdir.

Ümumi çəkili qeyri-müntəzəm divergent elliptik tənliklərin öyrənilməsi S.N.Krujkov və N.Trudinqerin əsərləri ilə başlamışdır. Xətti elliptik tənliklər üçün kifayət qədər inkişaf etmiş nəzəriyyə ilə yanaşı, Şauder və Kaççiopollinin işləri hesabına hazırda kvazixətti tənliklər üçün də mühüm nəticələr var.

Qeyri-stasionar halda bu nəzəriyyə V.A.Solonnikovun əsərlərində inkişaf etdirilmişdir. Bu nəticələr bir sıra kitablarda məsələn, M.Miranda, D.Qilbarq və N.Trudinqer, C.Morri və başqalarında ətraflı təsvir edilmişdir. Energetik metodun inkişafı Sobolev fəzaları aparatının inkişafı ilə sıx bağlıdır. Tamamıilə fərqli metodlarla ikinci tərtib xətti divergent parabolik tənliklərin həllinin Hölder kəsilməzliyi isbat olundu və bunlardan elliptik tənliklərin həlli üçün qiymətləndirmələr alındı. 1964-cü ildə parabolik tənliklər üçün J.Mozerin məhşur isbatı Harnak bərabərsizliyinin divergent parabolik tənliklərin həlli üçün tamamilə yeni bir yanaşma idi. Qeyd edək ki, Harnak bərabərsizliyindən həllərin Hölder kəsilməzliyi və güclü maksimum prinsipi asanlıqla alınır.

Zəif həllər üçün Harnak bərabərsizliyi Serrin və Trudinqer tərəfindən divergent formalı kvazixətti tənliklərə ümumiləşdirilmişdir. E.M.Landis elliptik tənliklər üçün De.Georgi teoreminin yeni isbat metodunu vermişdir. Sonralar məlum oldu ki,həllərin Hölder mənada kəsilməzliyi barəsindəki nəticə yüksək tərtibli tənliklərə, ümumiyyətlə desək şamil olunmur (1968-ci ildə bir-birindən asılı olmayaraq B.Q.Mazya, De.Georgi, E.Juisti və K.Miranda misal qurdular ki De.Georginin nəticəsi, hətta məhdudluq belə yüksək tərtibli tənliklər və tənliklər sistemi üçün təkcə müntəzəm elliptiklik şərti daxilində mövcud olmur). Amma yenə də Hölder normasının mövcud olduğu bir sinif yüksək tərtibli elliptik tənliklərin (və onların kvazixətti analoqlarını), İ.V.Skrıpnikin işində görmək olar. Yüksək tərtib elliptik tənliklər üçün Hölder bərabərsizliyi $n = 2l$ şərtində isbat edilmişdir. Kvazielliptik tənliklər üçün oxşar nəticə R.V.Hüseynov tərəfindən əldə edilmişdir. De.Georgi və J.Mozer tərəfindən irəli sürülən metodlar E.Juisti, G.Stampakkya, O.A.Ladıjenskaya, N.N.Uraltseva, C.Serrin, N.Trudinqer, S.N.Krujkov, Ə.Ə.Novruzov, Y.A.Alxutov, İ.T.Məmmədov, F.İ.Məmmədov və bir çox digər müəlliflər tərəfindən geniş inkişaf etdirilmişdir. O.A.Ladıgenskaya və N.N.Uraltsevanın monoqrafiya-sında kiçik hədləri də daxil olmaqla ,xətti və kvazixətti elliptik tənliklər, o cümlədən elliptik tip p-Laplas tənlikləri üçün kifayət qədər tam bir nəzəriyyə quruldu. Xətti parabolik tənliklər üçün (və qeyri-xətti,baş hissəsi xətti və koersitivlik tərtibi olması şərti ilə) oxşar bir nəzəriyyə O.A.Ladıgenskaya və N.N.Uraltseva və B.A.Solonnikovun monoqrafiyasında verilmişdir.

1982-ci ildə E.Feybs, C.Keniq və R.Serapioninin [1] xətti divergent elliptik tənliklərin həllinin requlyarlığına həsr olunmuş məşhur məqaləsi çap olundu. Burada fərz olunur ki, $\{a_{ij}(x)\}-$ matrisi müntəzəm elliptiklik şərtini və $\omega(x)-$ çəki funksiyası A_2-Maken-haupt şərtini ödəyir. Elə həmin ildə E.Feybs, D.S.Jerison, C.Keniqin[2] bir məqaləsi çap olundu. Bu məqalədə həmin tənlik üçün sərhəd nöqtəsinin requlyarlığı üçün Viner meyarı isbat olunmuşdur. Bu işlə əlaqədar olaraq, çəki funksiyası Makenhaupt sinfindən olduqda 1984-cü ildə F.Siarenza və Fraska, F.Siarenza və R.Serapioninin 1984-1987-ci illərdə xətti parabolik tənliklər üçün işlərini qeyd etmək olar.

Parabolik halda çəkili tənliyin xüsusiyyəti ondan ibarətdir ki, həllin baxılması lazım olan fəza-zaman miqyası çəkinin qiymətini dəyişməsinə uyğun olaraq nöqtədən nöqtəyə dəyişir. İstifadə olunan üsulla, əsasən, evklid fəzasında analiz zamanı istifadə olunan üsullara oxşardır və çətinlik Fridrixs, Sobolev, Puankare tipli lazımlı bərabərsizliklərin alınmasından ibarətdir. Bu çəkili tənliklərə də aiddir.

[1] Fabes, E., Kenig, K., Serapioni, R. The local regularity of solutions of degenerate elliptic equations // Comm. Partial Differential Equations. -1982. v.7, -c. 77-116.

[2] Fabes, E.B. Jerison, D.S., Kenig, C.E. , The Wiener test for degenerate elliptic equations// Annals de l’institut Fourier. -1982, v.32, no 3. –c.151-182.

Oblast hipermüstəvi ilə iki hissəyə bölündükdə və oblastın hər bir hissəsində çəki Makenhaupt olduqda, elliptik tənliklərin həllərinin requlyarlıq xassələrinin analiz texnikası Y.A.Alxutov və V.V.Jikov tərəfindən işlənib hazırlanmışdır. Həllərin Hölder kəsilməzliyi alınmış və adi formada ümümiyyətlə Harnak bərabərsizliyinin doğru olmadığı göstərilmişdir.

Tədqiqatın obyekt və predmeti. Dissertasiya işinin əsas obyekti diferensial tənliklərin həllərinin keyfiyyət xassələrinin öyrənilməsi.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin əsas məqsədi və vəzifəsi oblastın bir hissəsində müntəzəm cırlaşan elliptik tip p-Laplas tənliyinin həllərinin Hölder kəsilməzliyinin və Harnak bərabərsizliyinin öyrənilməsidir. Lavrentiev effektinin olduğu təqdirdə xətti cırlaşan elliptik tənliklərin həllərinin Hölder kəsilməzliyinin tədqiqi. Xüsusi Makenhaupt çəkili p-Laplas üçün klassik Harnak bərabərsizliyinin olmaması. Belə tənliyə uyğun Harnak bərabərsizliyinin tapılması.

Qeyri-müntəzəm cırlaşan ikinci tərtib xətti divergent elliptik və parabolik tənliklər üçün Dirixle məsələsinin birqiymətli həll olunmasının isbatı. Belə tənliklərin həllərinin Hölder kəsilməzliyinin və Harnak bərabərsizliyinin isbatı.

Tədqiqat metodları. İşdə diferensial tənliklər nəzəriyyəsinin, funksional fəzalar nəzəriyyəsinin, daxilolma teoremləri və funksional analizin üsullarından istifadə olunmuşdur. Əsas tədqiqat vasitəsi Mozerin iterativ, De.Giorgi və Ladıjenskaya-Uraltseva metodudur.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Faza sərhədləri koordinat xətləri olduqda və müstəvidə dörd fazalı halda, hər bir fazada çəki qüvvət funksiyası olduqda, ikinci tərtib divergent formalı xətti elliptik tənliklərin həllərinin Hölder kəsilməzliyi.
2. Fazanın sərhəddi hipermüstəvi olduqda Makenhaupt çəkili p-Laplas tənliyinin həllərinin Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi.

3.Oblastın bir hissəsində kiçik parametrə görə müntəzəm cırlaşan p-Laplas tənliyinin həllərinin Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi.
4. Oblastın bir hissəsində kiçik parametrə görə müntəzəm cırlaşan Makenhaupt çəkili p-Laplas tənliyinin həllərinin Hölder kəsilməzliyi.
5. Oblastın bir hissəsində kiçik parametrə görə müntəzəm cırlaşan dəyişən göstəricisi p-olan p(x)-Laplas tənliyinin həllərinin Hölder kəsilməzliyi.
6. Fazanın sərhəddi hipermüstəvi olduqda ,fazanın hər hansı birində kiçik parametrə görə müntəzəm cırlaşan , iki fazada göstəricisi hissə-hissə sabit p(x) olan p(x)-Laplas tənliyinin həllərinin Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi.
7. Oblastın bir hissəsində kiçik parametrə malik, ikinci tərtib divergent müntəzəm elliptik operatorlar üçün Dirixle məsələsinin məxsusi funksiyalarının modulunun maksimumunun qiymətləndirilməsi.
8. Kiçik hədləri olan, qeyri-müntəzəm cırlaşan divergent formalı ikinci tərtib elliptik tənliklər sinfi üçün Dirixle məsələsinin həllinin varlığı və yeganəliyi.
9. Qeyri-müntəzəm cırlaşan yeni sinif ikinci tərtib divergent parabolik tənliklər üçün birinci sərhəd məsələsinin həllinin varlığı və yeganəliyi, həllərin Hölder kəsilməzliyi və Harnak bərabərsizliyi.

Tədqiqatın elmi yeniliyi. Dissertasiya işində aşağıdakı elmi yeniliklər alınmışdır:
1. Xüsusi Makenhaupt çəkili xətti elliptik tənliklər öyrənilir. Bu tənliklər üçün Dirixle məsələsinin birqiyməti həll olunması və Hölder mənada kəsilməzliyi isbat olunur.
2. Xüsusi Makenhaupt çəkili qeyri-xətti $p-$Laplas tənliyinə baxılır. Bu tənliyin həlli üçün Hölder mənada kəsilməzlik və Harnak bərabərsizliyi isbat olunur.
3. Oblastın bir hissəsində müntəzəm cırlaşan qeyri-xətti $p(x)-$ Laplas tənliyi öyrənilir və həllin Hölder kəsilməzliyi isbat olunur.
4. Oblastın bir hissəsində kiçik parametrə görə müntəzəm cırlaşan xətti və qeyri-xətti elliptik tənliklərə baxılır. Oblastın bir hissəsində

müntəzəm cırlaşan elliptik tənliyin həllinin Hölder kəsilməzliyi, oblastın bir hissəsində cırlaşan Makenhaupt çəkili $p-$ Laplas tənliyinin həllinin Hölder kəsilməzliyi, Harnak bərabərsizliyi, oblastın bir hissəsində müntəzəm cırlaşan $(p,q)-$ Laplas tənliyinin həlləri üçün Harnak bərabərsizliyi isbat olunmuşdur.
5. Qeyri-müntəzəm cırlaşan xətti elliptik tənliklər öyrənilir. Bir sinif qeyri-müntəzəm cırlaşan ikinci tərtib elliptik tənliklər üçün Dirixle məsələsinin həll olunması isbat olunmuşdur.
6. İkinci tərtib qeyri-müntəzəm cırlaşan elliptik tənliklər üçün Dirixle məsələsinə baxılır. Bu məsələnin həlli üçün kəsilməzlik modulu öyrənilir.
7. Oblastın bir hissəsində böyük parametrə malik olan elliptik tənliklər üçün məxsusi funksiyaların modulunun müntəzəm qiymətləndirilməsi öyrənilir.
8. İkinci tərtib qeyri-müntəzəm cırlaşan divergent parabolik tənliklər üçün birinci sərhəd məsələsinin çəkili Sobolev fəzasında zəif həll olunması isbat edilir.
9. Qeyri-müntəzəm cırlaşan ikinci tərtib divergent parabolik tənliklərin həlləri üçün Harnak bərabərsizliyi isbat olunur.
10. Qeyri-müntəzəm cırlaşan ikinci tərtib divergent parabolik tənliklərin həllərinin Hölder kəsilməzliyi göstərilir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiyada alınmış nəticələr yenidir. İş xüsusi törəməli diferensial tənliklər nəzəriyyəsində müəyyən bir boşluğu doldurmaqla, nəzəri xarakter daşıyır. Bu nəticələr cırlaşan elliptik və parabolik tənliklərin həllərinin keyfiyyət xassələrinə tətbiq oluna bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas nəticələri AMEA Riyaziyyat və Mexanika İnstitutunun ümuminstitut seminarında, “Riyazi fizika tənlikləri” (AMEA–nın müxbir üzvü, prof. R.V.Hüseynov), “Diferensial tənliklər” (prof. Ə.Əliyev), “Qeyri-hormonik analiz” (AMEA–nın müxbir üzvü, prof. B.T.Bilalov) və “Riyazi analiz” (AMEA–nın müxbir üzvü, prof. V.S.Quliyev) şöbələrinin seminarlarında, eləcədə Bakı Dövlət Universitetinin “Riyazi fizika tənlikləri” (akad. Y.Ə.Məmmədov), “Diferensial və inteqral tənliklər” kafedralarının (prof.

N.Ş.İsgəndərov) və Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun elmi seminarlarında məruzə edilmişdir.

Dissertasiyanın əsas nəticələri A.Q. və H.Q. Stoletovlar adına Vladimir Dövlət Universitetində V.V.Jikov və Y.A.Alxutovun rəhbərlik etdiyi seminarda, həmçinin aşağıdakı elmi konfranslarda məruzə edilmişdir: Riyaziyyat və Mexanika İnstitutunun 45 illiyinə həsr olunmuş X-cu Beynəlxalq konfransda (Bakı, 2004), AMEA-nın müxbir üzvü, prof. İ.T.Məmmədovun 50 illiyinə həsr olunmuş respublika konfransında (Bakı, 2005), prof. Y.C.Məmmədovun 75 – illiyinə həsr olunmuş respublika konfransında (Bakı, 2006), akad. A.C.Hacıyevin 70-illiyinə həsr olunmuş "Riyaziyyat və mexanikanın problemləri" adlı beynəlxalq konfransda (Bakı, 2007), Azərbaycan xalqının ümummilli lideri H.Ə.Əliyevin 85–illiyinə həsr olunmuş "Riyaziyyatın aktual problemləri" adlı respublika konfransında (Bakı, 2008), REA-nın müxbir üzvü, prof. L.D. Kudryavtsevin 85-illiyinə həsr olunmuş 3-cü beynəlxalq konfransda (Moskva, 2008), akad. F.Q.Maqsudovun 80-illik yubileyinə həsr olunmuş "Spektral nəzəriyyə və onun tətbiqləri" adlı beynəlxalq konfransda (Bakı, 2010), akad. Z.İ.Xəlilovun 100-illik yubileyinə həsr olunmuş "Funksional analiz və onun tətbiqləri" adlı beynəlxalq konfransda (Bakı, 2011), akad. İ.İ.İbrahimovun 100-illik yubileyinə həsr olunmuş "Funksiyalar nəzəriyyəsi və harmonik analizin problemləri" adlı beynəlxalq konfransda (Bakı, 2012), Heydər Əliyevin 90-illiyinə həsr olunmuş respublika konfransında (Bakı, 2013), Riyaziyyat və Mexanika İnstitutunun 55-illiyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2014), "Diferensial tənliklər və dinamik sistemlər" adlı beynəlxalq konfranslarda (Suzdal, 2010, 2016, 2018), "Optimallaşdırma və onun sənaye tətbiqlərinə həsr olunmuş 6-cı" beynəlxalq konfransın əsərlərində (Bakı, 2018).

Müəllifin şəxsi töhfəsi tədqiqatın məqsədini göstərməkdən və istiqamətinin seçilməsindən ibarətdir. Bundan əlavə, alınan bütün nəticələr və tədqiqat üsulları şəxsən müəllifə məxsusdur.

Müəllifin nəşrləri. Azərbaycan Respublikasının Prezidenti yanında AAK–ın tövsiyə etdiyi nəşriyyatlarda 24 məqalə, 1 konfrans materialı və 23 tezis nəşr olunmuşdur.

Dissertasiya işinin yerinə yetrildiyi təşkilatın adı. Dissertasiya işi Bakı Dövlət Universitetinin "Ali riyaziyyat" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işinin ümumi həcmi – 489300 işarədir (titul səhifəsi – 288 işarə, mündəricat – 2853 işarə, giriş – 81500 işarə, birinci fəsil – 134000 işarə, ikinci fəsil – 136800 işarə, üçüncü fəsil – 42000 işarə, dördüncü fəsil – 95000 işarə). İstifadə edilmiş ədəbiyyat siyahısı 154 adda ədəbiyyatdan ibarətdir.

DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya girişdən, dörd fəsildən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Girişdə tədqiqat mövzusunun aktuallığı əsaslandırılmış və işlən-mə dərəcəsi göstərilmişdir, tədqiqatın məqsəd və vəzifələri qeyd olunmuşdur, elmi yeniliyi verilmişdir, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir və həmçinin işin aprobasiyası haqqında məlumat verilmişdir.

Birinci fəsildə Makenhaupt çəkili xətti və qeyri-xətti p-Laplas tənliyinin həllərinin keyfiyyət xassələri öyrənilmişdir. Bu fəslin əsas nəticələri müəllifin [11, 12, 13, 14, 15, 18, 37, 44] işlərində nəşr olunmuşdur.

1.1-də hamar funksiyalar çoxluğu sıx olmayan, çəkili $W-$ Sobolev fəzasında müntəzəm cırlaşan ikinci tərtib model ellip--tik tənliklər üçün Dirixle məsələsinin həll olunması tədqiq olunur. W və $H-$ həlləri anlayışı verilir və W və $H-$ Dirixle məsələləri--nin birqiymətli həll olunması isbat olunur.

Mərkəzi koordinat başlanğıcında radiusu vahidə bərabər olan $B\subset R^2$ dairədə cırlaşan

$$Lu\equiv\sum_{i=1}^{2}\frac{\partial}{\partial x_i}\left(\omega(x)\frac{\partial u}{\partial x_i}\right)=0, \tag{1}$$

elliptik tənliyinə baxaq.

Burada, $\omega(x)$ çəki funksiyasıdır

$$\omega(x)=\begin{cases}|x|^{-\alpha_1}, \; x_1>0, \; x_2>0; \\ |x|^{\beta_1}, \; x_1<0, \; x_2>0; \\ |x|^{-\alpha_2}, \; x_1<0, \; x_2<0; \\ |x|^{\beta_2}, \; x_1>0, \; x_2<0, \end{cases} \tag{2}$$

$0<\alpha_i<2, \; 0<\beta_i<2, \; i=1,2$ tənliyi ilə əlaqədar $W(B,\omega)$ funksiyalar sinfini daxil edək:

$$W(B,\omega)=\{u: u\in W_1^1(B), \; (u^2+|\nabla u|^2)\omega\in L_1(B)\} \tag{3}$$

Burada, $W_1^1(B)$ -klassik sobolev fəzasıdır. Yəni birinci tərtib ümumiləşmiş törəməsi olan və B-də cəmlənən funksiyalardır. $W(B,\omega)$ çəkili Sobolev fəzasında norma

$$\|u\|_W^2=\int_B (u^2+|\nabla u|^2)\omega dx$$

kimi təyin olunur. $\omega^{-1}\in L_1(B)$ olduqda, $W(B,\omega)$ fəzası tam fəzadır. Kompakt daşıyıcısı B-də və $W(B,\omega)$ -dən olan funksiyaların qapanmasından alınan fəzanı $W_0(B,\omega)$ ilə işarə edək. Yuxarıda baxılan çəki müstəvidə , hər bir dörd rübdə A_2-Makenhaupt şərtini ödəyir və onun üçün belə bir Fridrixs bərabərsizliyi doğrudur

$$\int_B u^2\omega dx\le C\int_B |\nabla u|^2\omega dx \quad \forall u\in W_0(B,\omega). \tag{4}$$

Ona görə də $W_0(B,\omega)$ Sobolev fəzasında normanı belə

$$\|u\|_{W_0}^2=\int_B |\nabla u|^2\omega dx$$

vermək olar. (1) tənliyinin həlli anlayışını verək.

Tərif 1. $u\in W(B,\omega)$ funksiyası (1) tənliyinin W -həlli adlanır,əgər ixtiyari $\psi\in W_0(B,\omega)$ funksiyası üçün

$$\int_B \nabla u\nabla\psi\omega dx=0 \tag{5}$$

inteqral eyniliyi ödənsin.

B-də hamar funksiyalar çoxluğu, $W(B,\omega)$ və $W_0(B,\omega)$ fəzalarında sıx deyil. Bunun isbatı (2) şəklində olan çəki funksiyası üçün $\alpha_1 = \alpha_2 = \beta_1 = \beta_2$ olduqda V.V. Jikova məxsusdur.

Yuxarıda deyilənlə əlaqədar olaraq fərz edək ki, $H(B,\omega)$ və $H_0(B,\omega)$ fəzaları uyğun olaraq $C^\infty(B) \cap W(B,\omega)$ və $C_0^\infty(B)$-dan olan funksiyaların $W(B,\omega)$ normasında qapanmasından alınan fəzalardır.

Tərif 2. $u \in H(B,\omega)$ funksiyası (1) tənliyinin H -həlli adlanır, əgər ixtiyari $\psi \in H_0(B,\omega)$ funksiyası üçün (5) inteqral eyniliyi ödənsin.

(1) tənliyi üçün daxil edilmiş W və H -həlləri, W və H – Dirixle məsələləri ilə əlaqədardır.

$$Lu_1 = 0 \quad B\text{-də}, \quad u_1 \in W(B,\omega), \quad h \in C^\infty(\overline{B}), (u_1 - h) \in W_0(B,\omega) \tag{6}$$

və

$$Lu_2 = 0 \ \ B\text{-də}, u_2 \in H(B,\omega),\ h \in C^\infty(\overline{B}),\ (u_2 - h) \in H_0(B,\omega), \tag{7}$$

Belə çəki funksiyası üçün

$$\omega(x) = \begin{cases} |x|^{-\alpha}, \ x_1 x_2 > 0; \\ |x|^{\alpha}, \ x_1 x_2 < 0, \end{cases} \tag{8}$$

W və H -həlləri, anlayışı (1) tənliyi üçün V.V.Jikov tərəfindən verilmişdir. Eyni bir sərhəd funksiyası üçün, W və H -Dirixle məsələlərinin birqiymətli həll olunması ilk dəfə Y.A.Alxutov, V.V.Jikov tərəfindən öyrənilmişdir. $\omega(x)$ (2) şəklində təyin olunmuş çəki funksiyasıdır. $u \in W(B,\omega)$ funksiyası üçün mərkəzi koordinat başlanğıcında olan polyar koordinat sistemindən istifadə olunur və $u(x) = u(r,\theta)$ kimi verilir. Aşağıdakı işarələmələri qəbul edək:

$$D^{(1)} = B \cap \{x : x_1 > 0,\ x_2 > 0\},\ D^{(2)} = B \cap \{x : x_1 < 0,\ x_2 < 0\},$$

$$D_r^{(i)} = D^{(i)} \cap \{x : |x| < r,\},\ S_r^{(i)} = D^{(i)} \cap \{x : |x| = r\},\ i = 1,2.$$

$d\mu_i = |x|^{-\alpha_i} dx,\ i = 1,2.$ işarə edək. Ölçülə bilən $E \subset R^2$ çoxluğunda, ölçülə bilən f funksiyası üçün

$$\mu_i(E) = \int_E d\mu_i, \oint_E f(x) d\mu_i = \frac{1}{\mu_i(E)} \int_E f(x) d\mu_i, \quad i = 1,2.$$

olar. Göstərilir ki, $u \in W(B,\omega)$ funksiyasının $D^{(1)}$ və $D^{(2)}-$ ə daralmaları

$$u^{(i)}(0) = \lim_{R \to 0} \oint_{D_R^{(i)}} u(x) d\mu_i,\ i = 1,2, \tag{9}$$

ədədinə bərabər olan $u^{(i)}(0), i = 1,2$ izlərinə malikdir və istənilən $R \in (0,1]$ üçün

$$\oint_{D_R^{(i)}} (u(x) - u^{(i)}(0))^2 |x|^{-2} d\mu_i \le C(a_i) \oint_{D_R^{(i)}} |\nabla u(x)|^2 d\mu_i,\ i = 1,2. \tag{10}$$

Hardi bərabərsizliyi doğrudur.

$W_2^1(D)$, birinci tərtib ümumiləşmiş törəməsi D-oblastında L_2-ən olan olan Sobolev fəzasıdır.

Aşağıdakı hökm doğrudur.

Lemma 1. $u(x)$ funksiyasının çəkili $H(B,\omega)$ Sobolev fəzasına daxil olması üçün zəruri və kafi şərt $u^{(1)}(0) = u^{(2)}(0)$ olmasıdır. Burada H fəzasının W-də koölçüsü vahidə bərabərdir.
Aşağıda verilmiş funksiya $u \in W(B,\omega)$ olduqda

$$u(x) = \begin{cases} 1, & x_1 > 0, x_2 > 0; \\ \sin\theta, & x_1 < 0, x_2 > 0; \\ 0, & x_1 < 0, x_2 < 0; \\ \cos\theta, & x_1 > 0, x_2 < 0 \end{cases}$$

$H(B,\omega)$-Sobolev fəzasına daxil deyil.
$W_0(B,\omega)$ və $H_0(B,\omega)$ fəzaları Hilbert fəzalarıdır və skalyar hasil $\langle u, \upsilon \rangle = \int_B \nabla u \nabla \upsilon \omega dx$ kimi təyin olunmuşdur.

Teorem 1. (6)-(7) məsələsi birqiymətli həll olunandır. Onda elə sərhəd funksiyası var ki, $h \in C^{\infty}(\overline{B})$ üçün $u_1(x)$ və $u_2(x)$ həlləri müxtəlifdir.

1.2-də W və H -həllərinin Hölder kəsilməzliyi öyrənilir.

Teorem 2. Əgər $\omega(x)$ -çəki (2) şərtini ödəyirsə, onda (1) tənliyinin H - həlli B -də Hölderdir və W -həlli, H -həll deyil. Bundan əlavə koordinat başlanğıcında kəsiləndir və $B \cap \{x : x_1 \geq 0,\ x_2 \geq 0\}$, $B \cap \{x : x_1 \leq 0,\ x_2 \leq 0\}$ hər birində Hölderdir.

$\omega_i(x)$ çəki funksiyaları A_2 – Макenhaupt şərtini ödəyir, koordinat düz xətlərinə nəzərən cütdür və

$$\left(\oint_{D_r^{(i)}} |\varphi|^4 d\mu_j \right)^{\frac{1}{2}} \leq C r^2 \oint_{D_r^{(i)}} |\nabla \varphi|^2 d\mu_j,\ \varphi \in W_0(B, \omega),\ j = 1,2,3,4\,. \qquad (11)$$

Sobolev bərabərsizliyi doğrudur. (11)-dən və Mozerin iterasiya metodunnan çıxır ki, aşağıdakı hökm doğrudur.

Lemma 2. (1) tənliyinin istənilən W və H -həlləri B -də lokal məhduddur.

Baxılan tənliklərin həllərinin çəkili qiymətləndirilməsi teoremin isbatında əsas rol oynayır. Onu ifadə etmək üçün B_r, haradaki $r \leq R$, ilə kifayət qədər kiçik r radiuslu və mərkəzi $S_R^{(i)}$, $i = 1,3$, qövslərində yerləşən açıq dairələri $D_r^{(i)} = B_r \cap D^{(i)}$ ilə işarə edək. Fərz edək ki,

$$\vartheta(x) = |u(x)|^{1+\varepsilon} + R^{\nu},\ \nu > 0,$$

haradki $u(x)$ (1) tənliyinin həllidir. Daxil olunmuş funksiya həmin tənliyin məhdud müsbət subhəllidir. Aşağıda fərz olunur ki,

$$\nu_0 = \min\left\{ \frac{\beta_2 + \alpha_1}{2},\ \frac{\beta_1 + \alpha_2}{2} \right\} \text{ və } 0 < \nu < \nu_0\,.$$

Teorem 3. ϑ, ν və r -dən asılı olmayan elə müsbət C_1 və C_2 sabitləri var ki,

$$1 \leq \gamma \leq C_1 R^{\nu - \nu_0}$$

şərti ödəndikdə, istənilən $0<\rho<r$ üçün

$$\left(\oint_{D_\rho^{(1)}} \vartheta^{2(\gamma+1)} d\mu_1\right)^{1/2} \le C_2(\gamma+1)^2\left(\frac{r}{r-\rho}\right)^2 \oint_{D_\rho^{(1)}} \vartheta^{\gamma+1} d\mu_1,$$

$$\left(\oint_{D_r^{(3)}} \vartheta^{(\gamma+1)} d\mu_3\right)^{1/2} \le C_2(\gamma+1)^2\left(\frac{r}{r-\rho}\right)^2 \oint_{D_r^{(3)}} \vartheta^{\gamma+1} d\mu_3 .$$

bərabərsizlikləri doğrudur.

Bir hissəsi Makenhaupt çəkili elliptik tənliklərin həllərinin Hölder kəsilməzliyi haqqında Y.A.Alxutov və V.V.Jikov işlərinin nəticələrindən çıxır ki, (1) tənliyinin W və H -həlləri $B\setminus\{(0,0)\}$-də Hölder mənada kəsilməzdir. Odur ki, teorem 2-nin isbatı həllin koordinat başlanğıcında tədqiqinə gətirilir. İsbatın əsası teorem 3-ün qiymətləndirilmələrinə və lemma 1-in hökmünə əsaslanaraq müəllif tərəfindən hazırlanmış Mozer metodunun modifikasiyasıdır.

Teorem 3-dən sonra mülahizələr $S_R^{(i)}$ $i=1{,}3$, qövslərində $\vartheta(x)$ subhəllinin maksimumunun $D_R^{(i)}$ çoxluqları üzrə inteqralların orta qiymətləri vasitəsilə Mozer qiymətləndirilməsinə həsr olunub. Bunun üçün bu teoremdə alınmış bərabərsizlikləri inteqrallamaq lazımdır. γ sabitinə qoyulmuş məhdudiyyətlərə görə burada ənənəvi isbatı işləmir. Sonsuz azalan həndəsi silsiləli radiuslu dairələr ardıcıllığı üzrə bərabərsizliklərin inteqrallanmasından ibarət olan ,təklif olunan üsul imkan verir ki, sonlu addımnan sonra γ sabitinə qoyulan məhdudiyyətləri ödəyəcək və $B_r^{x_0}\subset D^{(i)}$ dairəsinə keçilməyinə imkan verir. Bundan sonra Mozer texnikasına əsaslanan adi mülahizələrdən istifadə etmək olar.

1.3-də xüsusi formalı çəkili Sobolev fəzasında hamar funksiyaların sıxlığı üçün zəruri və kafi şərt tapılır.

R^2 -evklid müstəvisində vahid radiuslu $B=\{x:|x|<1\}$ dairəsində, çəkili Sobolev fəzasında

$$\omega(x)=\begin{cases} f^{-1}(|x|), & x_1 x_2>0\\ f(|x|), & x_1 x_2<0.\end{cases}$$

çəki funksiyasına baxaq. Baxılan f, çəki funksiyasının aşağıdakı şərtləri ödəməsi tələb olunur. Fərz edək ki, $f(t)$ kəsilməzdir, $(0,1]$-də azalmayandır və

$$f(2t)\le c\, f(t)\quad \forall t\in\left(0,\frac{1}{2}\right], \tag{12}$$

$$\sup_{t\in(0,1)}\left(\int_t^1 \frac{f(\tau)}{\tau}d\tau\right)\left(\int_0^t \frac{d\tau}{f(\tau)}\right)<\infty. \tag{13}$$

şərtlərini ödəyir. Xüsusi halda $f(t)=\ln^{\gamma}\frac{1}{2t}\cdot t^{-\alpha}$, $\gamma\in(-\infty,+\infty)$, $\alpha\in(0,2)$ funksiyası yuxarıdakı şərtləri ödəyir. $f(t)=t^{-\alpha}$, $\alpha\in(0,2)$, halında bu məsələ V.V.Jikovun işlərində həll olunub. Bizim halda (12), (13) şərtləri ödəndikdə $C^{\infty}(\overline{B})\cap W(B,\omega)$-an olan funksiyalar çoxluğu ümumiyyətlə desək, $W(B,\omega)$-də sıx deyil. Bununla əlaqədar olaraq $H(B,\omega)$ fəzasını $C^{\infty}(\overline{B})\cap W(B,\omega)$ çoxluğunun $W(B,\omega)$-da qapanması kimi təyin edək.

Teorem 4. $u\in W(B,\omega)$ funksiyası yalnız və yalnız o halda $H(B,\omega)$ fəzasına daxil olar ki,

$L_1(u)=L_3(u)$, şərti ödənsin, harda ki

$$L_1(u)=\lim_{r\to 0}\frac{2}{\pi}\int_0^{\pi/2}u(r,\theta)\,d\theta,\quad L_3(u)=\lim_{r\to 0}\frac{2}{\pi}\int_{\pi}^{3\pi/2}u(r,\theta)d\theta.$$

1.4 müntəzəm cırlaşan ikinci tərtib divergent formalı kvazixətti elliptik tənliklərin zəif həllərinin Hölder normasının daxili apriori qiymətləndirilməsinə həsr olunmuşdur.

$D\subset R^n$, $n\ge 2$, oblastında elliptik tənliyinə baxaq

$$\sum_{i=1}^{n}\frac{\partial}{\partial x_i}\left(\omega(x)|\nabla u|^{p-2}\frac{\partial u}{\partial x_i}\right)=0,\ \ p=const>1, \qquad (14)$$

haradaki, $\omega(x)\geq 0$. Həllə tərif vermək üçün

$$W_{loc}(D,\omega)=\{u: u\in W_{loc}^{1,1}(D), |\nabla u|^{p}\omega\in L_{loc}^{1}(D)\}$$

funksiyalar sinfini təyin edək. Haradaki $W^{1,1}(D)$ -klassik Sobolev fəzasıdır. $u\in W_{loc}(D,\omega)$ funksiyası (14) tənliyinin həlli adlanır, əgər istənilən finit funksiyası üçün $\xi\in W_{loc}(D,\omega)$

$$\sum_{i=1}^{n}\int_{D}\omega\ (x)|\nabla u|^{p-2}\frac{\partial u}{\partial x_i}\frac{\partial \xi}{\partial x_i}dx=0$$

inteqral eyniliyi ödənsin. Əsas məqsəd (14) tənliyinin həllərinin Höder kəsilməzliyini isbat etməkdən ibarətdir. Cırlaşan tənliklər üçün mövzuya çoxlu sayda iş həsr olunub. Ən geniş tədqiq olunan hal $\omega(x)$ çəki funksiyasının A_p -Makenhaupt şərtini ödədiyi haldır. $p\neq 2$ halı J.Heinonen, T.Kilpelainen, O.Martio [3] bu işlərdə öyrənmişlər. Qeyd edək ki, R^n -də təyin olunmuş $\omega(x)$ -çəki funkiyası o halda , A_p -şərtini ödəyir ki,

$$\sup\left(\frac{1}{|B|}\int_{B}\omega(x)dx\right)\left(\frac{1}{|B|}\int_{B}\omega^{-\frac{1}{p-1}}(x)dx\right)^{p-1}<\infty,\ 1<p<\infty,$$

haradaki supremium bütün $B\subset R^n$ kürələr üzrə götürülür. Bu cür çəkiyə standart misal kimi $\omega(x)=|x|^{\alpha}$, burada $-n<\alpha<n(\ p-1)$, həmçinin $\omega(x)=|x_n|^{\alpha}$, burada $-1<\alpha<p-1$ qüvvət funksiyalarını göstərmək olar.

A_p -Makenhaupt şərtinin əsas nəticələri ikilik şərti

$$\omega(B_{2r})\leq c\omega(B_r), \qquad (15)$$

[3] Heinonen, J., Kilpelainen, T., Martio, O. Nonlinear potential theory of degenerate elliptic equations// Mineola. NY: Dover Publ. Inc.,- 2006. XII, 404 pp.

Sobolev bərabərsizliyi

$$\left(\oint_{B_r} |\varphi|^{pk} d\mu \right)^{\frac{1}{k}} \le c(n,p) r^p \oint_{B_r} |\nabla \varphi|^p d\mu, \ \varphi \in C_0^\infty(B_r), \ k = \frac{n}{n-1}, \quad (16)$$

Fridrixsin

$$\int_{B_r} |\varphi|^p d\mu \le c(n,\nu,p) r^p \int_{B_r} |\nabla \varphi|^p d\mu,$$

$$\varphi \in C^\infty(\overline{B}_r), \ \varphi\big|_E = 0, \ |E| \ge \gamma |B_r|, \ \gamma > 0 .$$

bu bərabərsizliyidir.

Y.A.Alxutovov və V.V.Jikovun işində daha ümumi şəkilli çəki funksiyalarına baxılmışdır. Daha dəqiq, fərz olunur ki, $\Sigma = \{x : x_n = 0\}$ hipermüstəvisi D oblastını iki

$$D^{(1)} = D \cap \{x : x_n > 0\} \text{ və } D^{(2)} = D \cap \{x : x_n < 0\}$$

alt oblastlarına bölür və

$$\omega(x) = \begin{cases} \omega_1(x), & x \in D^{(1)} \\ \omega_2(x), & x \in D^{(2)}, \end{cases} \quad (17)$$

haradaki $\sum$ -a nəzərən cüt olan $\omega_i(x), \ i = 1,2,$ çəki funksiyalarının hər biri A_p -Makenhaupt şərtini ödəyirlər.

Bundan əlavə mərkəzi $\sum$ üzərində olan B_r kürələri üçün, sanki bütün $x \in B_r$ üçün $r \le r_0$ olduqda, r və x-dən asılı olmayan c sabiti ilə

$$\frac{\omega_1(x)}{\omega_1(B_r)} \le c \frac{\omega_2(x)}{\omega_2(B_r)} \quad (18)$$

bərabərsizliyi ödənir. Xüsusi halda $\sum$ -nın r_0 ətrafında $\omega_1(x) \le c\omega_2(x)$ doğrudur.

Belə çəkilər üçün (15) ikilik şərti və (16) Sobolev bərabərsizliyi ümumi halda pozulur. Y.A.Alxutov və V.V.Jikovun işində göstərilir ki, $p = 2$ olduqda (17) və (18) şərtləri ödəndikdə (14) tənliyinin həlləri Hölder mənada kəsilməzdirlər, həm də klassik Harnak bərabərsizliyi yoxdur.

Aşağıdakı hökm həllərin Hölder mənada kəsilməzliyinin isbatında mühüm rol oynayır.

Lemma 3. Tutaq ki, $\vartheta(x)-$ funksiyası (14) tənliyinin müsbət məhdud subhəllidir, yəni

$$\int_D \sum_{i=1}^{n} \omega(x)|\nabla\vartheta|^{p-2}\frac{\partial\vartheta}{\partial x_i}\frac{\partial\xi}{\partial x_i}dx \le 0, \ \forall\xi\in C_0^{\infty}(D), \ \xi\ge 0 \qquad D-\text{də}.$$

Onda ixtiyari $B_{8R}\subset D$ kürəsi üçün

$$\sup_{B_R}\vartheta(x)\le c\left(\oint_{B_{2R}^{(1)}}\vartheta^p(x)d\mu_1+\oint_{B_{2R}^{(2)}}\vartheta^p(x)d\mu_2\right)^{1/p},$$

bərabərsizliyi ödənir, haradaki c sabiti yalnız n, p və ω -an asılıdır.

$D^{(1)}$ və $D^{(2)}$ oblastları bu lemmanın isbatında müxtəlif rol oynayırlar. Bu onunla bağlıdır ki, mərkəzləri bölən hipermüstəvi üzərində olan kürələrdə yüksək dərəcədən cəmlənməyə malik Sobolevin çəkili daxil etmə teoremi yoxdur.

Sonra əsas nəticə isbat olunur.

Teorem 5. Əgər ω (17) və (18) şərtlərini ödəyirsə,haradaki ω_1 və ω_2 Σ hipermüstəvisinə nəzərən cüt funksiyalar olub, A_p – Makenhaupt sinfinə daxildirsə, onda (14) tənliyinin bütün həlləri D-də Hölder mənada kəsilməzdir.

1.5–də(17), (18) şərtlərini ödəyən çəkili (14) tənliyinin həlləri üçün klassik Harnak bərabərsizliyinin yoxluğu isbat olunur və bu tənliyə uyğun Harnak bərabərsizliyi göstərilir.

Əvvəl göstərilmişdir ki , $\omega\in A_p$ isə, onda (14) tənliyinin həlləri D-də Hölder mənada kəsilməzdir və $B_{4R}\subset D$-də bütün mənfi olmayan həllər üçün klassik Harnak bərabərsizliyi

$$\inf_{B_R} u \ge const\cdot\sup_{B_R} u. \qquad (19)$$

ödənir. Bizim tərəfdən müəyyən edilmişdir ki, əgər mərkəzi $\sum\cap D$-də olan bütün B_R kürələrində

$$\frac{\omega_2(B_r)}{\omega_1(B_r)} \to \infty \quad \text{əgər } r \to 0,$$

münasibəti ödənirsə, onda (19) klassik Harnak bərabərsizliyi və (17) Sobolev bərabərsizliyi dəqiq ödənmir. Bu nəticənin isbatı tütüm potensialının qiymətləndirilmələrinə əsaslanır.

Bir halda ki, mərkəzləri Σ hipermüstəvisində olan kürələrdə (19) klassik Harnak bərabərsizliyi ödənmir, nəticənin ifadəsində məhz belə kürələr iştirak edir və aşağıdakı

$$B_R^- = B_R \cap \{x : -R < x_n < -R/2\}. \tag{20}$$

fərz olunur. Aşağıdakı hökm doğrudur.

Teorem 6. Əgər $\omega(x)$ çəkisi (17), (18) şərtlərini ödəyirsə və $u(x)$ -funksiyası mərkəzi $\sum$ -da olan kürəsində (14) tənliyinin mənfi olmayan həllidirsə , onda $B_{4R} \subset D$

$$\inf_{B_R} u \geq \gamma \sup_{B_R} u, \tag{21}$$

bərabərsizliyi doğrudur,haradaki müsbət $\gamma < 1$ sabiti u və $R-$ dən asılı deyil.

Teorem 6-dan $\sum\cap D$ nöqtələrində həllin Hölder mənada kəsilməzliyi və bunun nəticəsi kimi, həllərin bütün D oblastında Hölder kəsilməzliyi alınır.

1.6-da oblastın bir hissəsində kiçik parametrə görə müntəzəm cırlaşan dəyişən p göstəricili olan $p(x)-$ Laplas tənliyi tədqiq olunur. Daha dəqiq, $D \subset R^n, n \geq 2,$ oblastında aşağıda təyin olunacaq müsbət $\omega_\varepsilon(x)$, çəkili elliptik

$$L_\varepsilon u = div\left(\omega_\varepsilon(x)|\nabla u|^{p(x)-2}\nabla u\right) = 0 \tag{22}$$

tənliklər ailəsinə, $D-$də sanki hər yerdə

$$1 < p_1 \leq p(x) \leq p_2 \tag{23}$$

şərtini ödəyən ölçülən $p(x)$ göstəricisi ilə baxılır. Fərz olunur ki, D oblastı, $\sum = \{x : x_n = 0\}$ hipermüstəvisi ilə $D^{(1)} = D \cap \{x : x_n > 0\}$, $D^{(2)} = D \cap \{x : x_n < 0\}$ hissələrinə bölünüb və

$$\omega_\varepsilon(x) = \begin{cases} \varepsilon, & x \in D^{(1)} \\ 1, & x \in D^{(2)} \end{cases}, \ \varepsilon \in (0,1]. \tag{24}$$

(22) tənliyinin həllini təyin etmək üçün

$$W_{loc}(D) = \left\{ u : \ u \in W^{1,1}_{loc}(D), |\nabla u|^{p(x)} \in L^1_{loc}(D) \right\},$$

funksiyalar sinfini daxil edək, haradaki $W^{1,1}_{loc}(D)$, D-də birinci tərtib ümumiləşmiş törəməsi ilə birgə lokal cəmlənən funksiyaların Sobolev fəzasıdır.

$u \in W_{loc}(D)$ funksiyası (22) tənliyinin həlli adlanır, əgər $\psi \in C_0^\infty(D)$ finit funksiyası üçün

$$\int_D \omega_\varepsilon(x) |\nabla u|^{p(x)-2} \nabla u \cdot \nabla \psi dx = 0 \tag{25}$$

inteqral eyniliyi ödənsin.

Həllərin daxil olunmuş $W_{loc}(D)$ sinfində, hamar funksiyaların sıxlığı mühüm rol oynayır.

V.V. Jikov və X.Fanın işində göstərilib ki, əgər loqarifmik

$$|p(x) - p(y)| \le \frac{c}{\ln \frac{1}{|x-y|}}, \quad x, y \in D, |x-y| < \frac{1}{2} \tag{26}$$

şərti ödənilirsə, onda ixtiyari $u \in W_{loc}(D)$ funksiyası üçün $\{u_j\}$ ardıcıllığı var ki, haradaki $u_j \in C^\infty(D)$ və istənilən $\overline{D}' \subset D$ altoblastında

$$\lim_{j\to\infty} \|u_j - u\|_{W^{1.1}(D')} = 0, \ \lim_{j\to\infty} \int_{D'} |\nabla u_j|^{p(x)} dx = \int_{D'} |\nabla u|^{p(x)} dx.$$

münasibəti ödənir.

Hal –hazırda (26) şərti dəyişən dərəcəli cəmlənməyə malik Sobolev fəzaları nəzəriyyəsində və $p(x)$ -hormonik funksiyaların Hölder kəsilməzliyi məsələsində mühüm rol oynayır. Y.A.Alxutovun işində (26) şərti ödəndikdə $\varepsilon = 1$ halında (22) tənliyinin həllərinin Hölder normasının apriori qiymətləndirilməsi isbat olunmuşdur. Bu işdə fərz olunur ki , $i = 1,2$ qiymətlərində

$$|p(x) - p(y)| \le \frac{c_0}{\ln \frac{1}{|x-y|}}, \text{ əgər } x, y \in D^{(i)}, |x-y| < 1/2, \tag{27}$$

bərabərsizliyi müəyyən $D \bigcap \sum$, ətrafında ödənir və

$$p(x) \ge p(\tilde{x}), \quad x \in D^{(2)}, \tag{28}$$

bərabərsizliyi doğrudur, haradaki $\tilde{x}$ - x nöqtəsinin Σ hipermüstəvisinə nəzərən simmetrik nöqtəsidir. Y.A.Alxutovun işində göstərilib ki, (27) şərti ödəndikdə hamar funksiyalar çoxluğu $W_{loc}(D)$ sinfində sıxdır. Burdan alınır ki, (25) inteqral eyniliyində kompakt daşıyıcıları D -ən olan $\psi \in W_{loc}(D)$ finit funksiyalarından istifadə etmək olar. Bizi isə α Hölder göstəricisinin kiçik ε parametrindən asılı olmaması məsələsi maraqlandırır.

Fərz edək ki, $\{u^\varepsilon(x)\}$, $L_\varepsilon u^\varepsilon = 0$ tənliyinin L_∞-da kompakt D altçoxluqlarında ε -a görə müntəzəm məhdud həllər ailəsidir. Aşağıdakı hökm isbat olunur.

Teorem 7. Əgər (23), (24), (27) və (28) şərtləri ödənirsə , onda ε -an asılı olmayan elə $\alpha \in (0,1)$ sabiti var ki , $\{u^\varepsilon(x)\}$ ailəsi ixtiyari $\overline{D}' \subset D$ altoblastı üçün $C^\alpha(D')$ -də kompaktdır.

İkinci fəsil oblastın bir hissəsində kiçik parametrə görə müntəzəm cırlaşan, ikinci tərtib divergent elliptik tənliklərin həllərinin Hölder kəsilməzliyinə və Harnak bərabərsizliyinə həsr olunmuşdur. Bu fəslin əsas nəticələri müəllifin [20, 21, 24, 34,36,37,38,39,40,42,45,46,47] işlərində nəşr olunmuşdur.

2.1-də $D \subset R^n$, $n \ge 2$, oblastında xətti elliptik

$$L_\varepsilon u = \sum_{i,j=1}^{n} \frac{\partial}{\partial x_j}\left(a_{ij}(x)\omega_\varepsilon(x)\frac{\partial u}{\partial x_j}\right) = 0 \qquad (29)$$

tənliklər ailəsinə baxılır.

Fərz olunur ki D oblastı, $\Sigma = \{x : x_n = 0\}$ hipermüstəvi ilə iki $D^{(1)} = D \cap \{x : x_n > 0\}$ və $D^{(2)} = D \cap \{x : x_n < 0\}$ hissələrinə ayrılmışdır. Burada, $\omega_\varepsilon(x)$ çəki funksiyası (24) şəklindədir. $\{a_{ij}(x)\}$ ölçülə bilən simmetrik matrisdir və müntəzəm elliptiklik

$$\gamma^{-1}|\xi|^2 \le \sum_{i,j=1}^{n} a_{ij}(x)\xi_i\xi_j \le \gamma|\xi|^2 \qquad (30)$$

şərtini ödəyir.

$u \in W^1_{2,loc}(D)$ funksiyası (29) tənliyinin həlli adlanır,əgər kompakt daşıyıcısı D-ən olan $\varphi \in \overset{\circ}{W}{}^1_2(D)$ finit funksiyası üçün

$$\sum_{i.j=1}^{n} \int_D a_{ij}(x)\omega_\varepsilon(x)u_{x_i}\varphi_{x_j}\,dx = 0$$

inteqral eyniliyi ödənsin.

Tutaq ki, $\{u^\varepsilon(x)\}$, $L_\varepsilon u^\varepsilon = 0$ tənliyinin L_∞-da kompakt D altçoxluqlarında ε -a görə müntəzəm məhdud həllər ailəsidir.

Aşağıdakı nəticə alınmışdır.

Teorem 8. Yalnız fəzanın n -ölçüsündən və (30) şərtindəki γ-sabitindən asılı olan elə $\alpha \in (0,1)$ sabiti var ki, ixtiyari $\overline{D'} \subset D$ altoblastı üçün $\{u^\varepsilon(x)\}$ ailəsi $C^\alpha(D')$-də kompaktdır.

